**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SUBTROPİK BİTKİÇİLİYİN İNNOVASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ ƏSASINDA SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Nuridə Əliş qızı Qasımova**

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin Sənaye və aqrar sahənin iqtisadiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, dosent
**Akif Həmzə oğlu Vəliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
**Nizami Cəlal oğlu Qafarov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Nurəngiz Yanvar qızı Mikayılova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Təhmasib Faiq oğlu Hüseynov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universiteti Birgə Dissertasiya Şurası

Birgə Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Kənd təsərrüfatı Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayır. Kənd təsərrüfatının inkişafının ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində, əhalinin işsizlik səviyyəsinin azaldılmasında və məşğulluq səviyyəsinin yüksəlməsində sosial-iqtisadi əhəmiyyətə malik olduğu iqtisadçılar tərəfindən tez-tez aktuallaşdırılır və diqqət mərkəzində saxlanılır. Qeyd etmək lazımdır ki, son illərdə aparılan məqsədyönlü islahatlar nəticəsində kənd təsərrüfatı sahəsi, iqtisadi inkişafa, milli gəlirlərin və ixrac gəlirlərinin artmasına böyük töhfə verməkdədir. Kənd təsərrüfatı sahəsi bitkiçilik, heyvandarlıq, balıqçılıq və digər müxtəlif məhsulların istehsalını artırmaqdan qaynaqlanır. Azərbaycanda kənd təsərrüfatı sahəsinin səmərəli inkişafı üçün hərtərəfli, koordinasiyalı və uzunmüddətli aqrar siyasətin təmin edilməsi ən mühüm vəzifələrdən biridir. Aqrar əsaslı sənaye sahələrinin genişləndirilmiş inkişafı yolu ilə kənd təsərrüfatı məhsullarının ixracdan əvvəl, əlavə dəyərinin artırılması üçün əsasən kənd təsərrüfatı məhsullarının emalı, saxlanması və daşınması, kənd təsərrüfatı ilə sənaye əlaqələrinin düzgün qurulması, dəyər zənciri üzrə inkişafın təmin edilməsi tələb olunur. Kənd təsərrüfatında istehsalın dəyər zənciri üzrə inkişaf etdirilməsinin iqtisadi cəhətdən bir sıra əhəmiyyəti vardır.

Azərbaycan iqtisadiyyatı üçün kənd təsərrüfatı öz aktuallığını saxlamaqla bərabər iqtisadiyyatın şaxələndirilməsində və xarici şokdan qorunmasında da mühüm rol oynayır. Əsas məhsulların, xüsusən də ərzaq məhsulları kimi tərəvəz və meyvə ixracının artırılması, sektora işçi qüvvəsini saxlamağa və iqtisadi tənəzzülə tab gətirməyə imkan verir. Azərbaycanda iqtisadi fəaliyyəti yaxşılaşdırmaq üçün innovativ texnologiyaların tətbiqi ilə istehsal sahələrinin genişlənməsi, xüsusilə şaxələndirilməsi çox vacibdir.

Azərbaycanda aparılan aqrar islahatlar nəticəsində məhsul istehsalçılarının statusu dəyişməklə bərabər qarşıya çıxan problemlər daha da dərinləşməklə fərdi şəkildə hər bir istehsalçını əhatə etdi. Aqrar islahatlar aparıldığı gündən bəri kənd təsərrüfatı maşınları,

toxum, gübrə, suvarma və zərərvericilərə qarşı mübarizə sahəsindəki davamlı təkmilləşdirmələr fermerlərin əmək məhsuldarlığını artırsa da onların gəlirlərində ciddi dəyişiliklər baş vermədi. Fermerlər onlara təklif olunan qiymətlərlə razılaşmayaraq prioritet hesab olunan kənd təsərrüfatı məhsullarının həcminin artırılmasından faktiki olaraq imtina etdilər. Bu isə, üzümçülük, pambıqçılıq, çayçılıq və tütünçülük sahələrinin kəskin şəkildə azaldılmasına səbəb oldu.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində və kənd təsərrüfatı ixrac potensialının artırılmasında subtropik bitkiçiliyin inkişaf etdirilməsinin xüsusi əhəmiyyəti vardır. Məhz bu məqsədlə ölkədə çayçılığın və subtropik bitkilərin tərkib hissəsi olan sitrus meyvəçiliyinin inkişafı üçün dövlət proqramları hazırlanaraq qəbul edilmişdir. Kənd təsərrüfatı sahəsində olan çoxillik təcrübə göstərir ki, aqrotexniki qaydalara düzgün əməl olunsa, təsərrüfat düzgün idarə edilsə, eləcə də bitkilər və istehsal sahələri səmərəli yerləşdi-rilsə kənd təsərrüfatı bitkilərindən yüksək, sabit məhsul götürmək və heyvandarlıq sahəsində məhsuldarlığı xeyli yüksəltmək olar.

Kənd təsərrüfatının inkişafında və istehsal sahələrinin düzgün yerləşməsində, ixtisaslaşmasında təbii-iqlim şəraiti mühüm rol oynayır. Ölkədə çay və sitrus meyvələri istehsalı əsasən Lənkəran-Astara iqtisadi rayonunda Astara, Lənkəran və Masallı rayonlarında mümkündür. Digər subtropik bitkilər olan zeytun məhsulu əsasən Bakı şəhərində, Abşeron iqtisadi rayonunda, Siyəzən və Salyan rayonlarında yetişdirilir, nar məhsulu əsasən Aran, Mil-Muğan, Şirvan-Salyan iqtisadi rayonlarında və Ağsu rayonunda, xurma məhsulu əsasən Şəmkir, Xaçmaz, Ağdaş, Göyçay və Balakən rayonlarında istehsal olunsa da digər rayonlarda da istehsalı vardır. Bu məhsulların istehsalı xüsusi əhəmiyyət kəsb etdiyindən ayrı-ayrılıqda sahələrin inkişafı üçün qəbul edilmiş Dövlət Proqramlarında, o cümlədən "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın giriş hissəsində qeyd edilir: "Əhalinin ərzaq məhsullarına tələbatının davamlı şəkildə ödənilməsi məqsədi ilə son illərdə qəbul edilmiş dövlət proqramlarının icrası, aqrar sahənin ixracyönümlü məhsullarının istehsalının təşviqi istiqamətində həyata

keçirilən tədbirlər ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına səbəb olmuş, bölgələrdə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır. Kənd təsərrüfatında özünəməxsus yeri olan sitrus meyvə bitkilərinin becərilməsi üçün ölkəmizin cənub bölgəsində əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, bu sahənin yüksək iqtisadi səmərəliliyə və ixrac potensialına malik olması sitrusçuluğun inkişaf etdirilməsini zəruri edir".

Bütün qeyd edilənlər bu sahədə tədqiqatların aparılması zəririliyini şərtləndirir və dissertasiya mövzusunun aktuallığını səciyyələndirir.

Subtropik bitkiçiliyin innovativ inkişafı və səmərəliliyinin təmin edilməsi, dəyər zənciri üzrə istehsalın dərinləşdirilməsi, rəqabətqabiliyyətliliyinin artırılması, onun sahə strukturunun təkmilləşdirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə etməklə istehsal sahələri üzrə ixtisaslaşma səviyyəsinin yüksəldilməsi və təkmil təşkilati-iqtisadi fəaliyyət mexanizminin qurulması, ərzaq təhlükəsizliyi kontekstində subtropik bitkiçilik məhsulları bazarının, həmçinin ərzaq təhlükəsizliyi problemlərinin tədqiqinin nəzəri, metodoloji və tətbiqi aspektləri bir qrup ölkə alimlərinin - Z.Ə.Səmədzadə, E.A. Quliyev, İ.H. İbrahimov, V.H. Abbasov, İ.H. Alıyev, B.X. Ataşov, M.M. Hüseynov, A.H. Vəliyev, R.Z. Hüseyn, S.V. Salahov, G.Ə. Əhmədov və digərlərinin elmi əsərlərində baxılmışdır.

İnnovativ inkişafa nəzəri baxış ümumilikdə klassik və xarici iqtisadçı alimlərdən E. Süt, A.K. Çetin, S.A. Danışman, M.S.Bunin, V.S.Mironova, Q.E.Erşova, N.V.Kiselyova, T.V.Borovikova, Q.V. Zaxarova, M.İ. Rimer, N.A. Krasnova və digərlərinin elmi əsərləri və araşdırmalarında problemin ayrı-ayrı tərəflərinin tədqiqinə rast gəlinir.

Onu da qeyd edək ki, subtropik bitkiçiliyin innovativ inkişafı və səmərəliliyinin yüksəldilməsi, inkişaf xüsusiyyətlərinin və potensialın qiymətləndirilməsi, qlobal ərzaq problemləri üzrə çağırışları nəzərə alınmaqla subtropik bitkiçilik, o cümlədən çay məhsulları və sitrus meyvəçilik bazarının inkişafının, həmçinin mövcud mexanizmlərinin tənzimlənməsi, bu sahədə dövlət dəstəyi

vasitələrinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə fundamental elmi araşdırmaların aparılması zərurəti qalmaqdadır.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq subtropik bitkiçilik, o cümlədən meyvəçilik təsərrüfatları tədqiqatın obyekti olaraq müəyyən edilmişdir.

Tədqiqatın predmetini isə subtropik bitkiçilik məhsulları istehsal edən müxtəlif mülkiyyət formalı təsərrüfatların inkişafının, innovativ texnologiyalardan istifadə imkanlarının, yeni istehsal münasibətlərinin tələblərinə uyğun müasir idarəetmə sisteminin formalaşdırılmasının, habelə sahənin inkişafının nəzəri, metodoloji və təcrübi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi yeni tələblər baxımından subtropik bitkiçiliyin innovativ inkişafının və səmərəliliyinin yüksəldilməsinin mövcud vəziyyətini təhlil etməkdən və inkişaf istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Bununla əlaqədar olaraq, tədqiqat işində qarşıya aşağıdakı vəzifələrin icrası qoyulmuşdur:

- ✓ bazar münasibətləri prinsiplərinə uyğun olaraq, bir sistem kimi subtropik bitkiçiliyin innovativ inkişaf və səmərəliliyinin yüksəldilməsi problemləri üzrə nəzəri-metodoloji aspektlərin ümumiləşdirilməsi;
- ✓ subtropik bitkiçiliyin innovasiya texnologiyaları əsasında istehsalının təşkili və səmərəli fəaliyyətinin qanunauyğunluqlarının aşkar edilməsi və ona dair konseptual yanaşmaların əsaslandırılması;
- ✓ subtropik bitkiçilik məhsulları bazarının səmərəliliyi üzrə beynəlxalq təcrübənin araşdırılması və onun rəqabətqabiliyyətlilik şərtlərinə uyğun olaraq ölkəmizdə tətbiqi imkanlarının araşdırılması;
- ✓ innovativ texnologiyalar əsasında subtropik bitkiçiliyin inkişaf etdirilməsinin ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasındakı rolunun müəyyən edilməsi və iqtisadi səmərəliliyinin mövcud vəziyyətinin təhlil edilməsi;
- ✓ subtropik bitkiçilik məhsullarının innovasiya texnologiyaları əsasında istehsalının və satışının mövcud vəziyyətinin tədqiq edilməsi, onun inkişafına təsir edən amillərin aşkar edilməsi;

- ✓ subtropik bitkiçilik təsərrüfatlarının regional inkişaf xüsusiyyətlərinin təhlil edilməsi;
- ✓ subtropik bitkiçiliyin innovativ texnologiyalar əsasında inkişafının prioritet istiqamətlərinin müəyyən edilməsi;
- ✓ subtropik bitkiçiliyin innovativ texnologiyalar əsasında inkişafının dövlət tənzimləməsi və stimullaşdırma mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə tövsiyə və təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində iqtisadi-statistik, qruplaşdırma, müqayisəli təhlil, balans, məntiqi ümumiləşdirmə, məqsədli-sistemli yanaşma, proqnozlaşdırma və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiə çıxarılan əsas müddəalar** aşağıdakı kimi xarakterizə olunur:

- ✓ subtropik bitkiçiliyin innovasiya texnologiyaları əsasında inkişafının, elmi-nəzəri əsasları ilə bağlı ümumi müddəaların və istehsalın səmərəliliyinin yüksəldilməsinin iqtisadi aspektlərinin müəyyən edilməsi;
- ✓ subtropik bitkiçiliyin inkişafının səmərəliliyini şərtləndirən amillərin ölkənin sosial-iqtisadi inkişaf və ərzaq təhlükəsizliyi kontekstində müəyyənləşdirilməsi;
- ✓ innovasiya texnologiyaları əsasında subtropik bikiçilik məhsulları istehsalının iqtisadi səmrəliliyinin qiymətləndirilməsinin metodoloji əsaslarının müəyyən edilməsi;
- ✓ subtropik bitkiçilik məhsulları istehsalının səmərəliliyini xarakterizə edən əsas iqtisadi göstəricilərinin tədqiqinin zəruriliyi;
- ✓ subtropik bitkiçilik məhsulları istehsalının regional xüsusiyyətlərinin və inkişaf potensialının qiymətləndirilməsi;
- ✓ subtropik bitkiçilik məhsulları bazarında və rəqabətqabiliyyətli satışında marketinq xidmətinin təşkili və inkişaf etdirilməsi imkanlarının müəyyən edilməsi;
- ✓ subtropik bitkiçilik məhsulları istehsalı və emalı müəssisələrinin səmərəli inkişafının formalaşdırılması, onlar arasında inteqrasiya münasibətlərinin yaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi;

- ✓ subtropik bitkilərin innovativ istehsalının dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat zamanı əldə edilən elmi yeniliklər aşağıdaklardan ibarətdir:

- ✓ aqrar sahədə məhsul istehsalının xüsusiyyətlərinə uyğun olaraq subtropik bitkiçilik məhsulları istehsalında innovasiya prosesinə təsir edən amillər müəyyən edilmişdir;
- ✓ subtropik bitkiçilik məhsulları istehsalının innovasiya texnologiyaları əsasında inkişafının səmərəliliyinin təmin edilməsi strategiyasından yanaşmaqla, bazar münasibətləri şəraitində yeni iqtisadi bölgü əsasında regionda subtropik bitkiçiliyin inkişaf prioritetləri müəyyən edilmişdir;
- ✓ ölkənin ərzaq təhlükəsizliyi kontekstində metodoloji yanaşmalar baxımından subtropik bitkiçilik məhsulları bazarının formalaşması və inkişaf etdirilməsi elmi cəhətdən əsaslandırılmışdır;
- ✓ ölkədə subtropik bitkiçilik məhsulları istehsalının və bazarının müasir vəziyyətinin təhlilindən çıxış etməklə, subtropik bitkiçilik məhsullarının tədarükü, saxlanılması, ehtiyatlarının yaradılması və emalı üzrə dövlət tənzimlənməsi mexanizmlərinin yenilənməsi və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması şərtləri əsaslandırılmışdır;
- ✓ subtropik bitkiçilik məhsulları istehsalının inkişafında innovativ yanaşmanın təmin edilməsi, yüksək texnologiyaların transferi və tətbiqi ilə bağlı proseslərin intensivləşdirilməsinin strateji istiqamətləri qiymətləndirilmişdir;
- ✓ subtropik bitkiçilik məhsulları üzrə ixtisaslaşmış müvafiq iqtisadi rayonların ölkə iqtisadiyyatında rolu və əhəmiyyətinin təhlilindən yanaşmaqla, bu rayonların bitkiçilik məhsulları bazarında və ixracında paylarının artırılması üçün ixtisaslaşma potensialı və inteqrasiya əlaqələrinin genişləndirilməsi istiqamətləri müəyyən edilmişdir;
- ✓ Azərbaycanda subtropik bitkiçilik məhsulları istehsalının innovasiya texnologiyaları əsasında inkişafının dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin

yüksəldilməsi istiqamətləri müəyyənləşdirilmiş, təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti subtropik bitkiçilik məhsullarının innovativ texnologiyalar əsasında istehsalının inkişafı və səmərəliliyi, eləcə də regional təbii-iqlim şəraitinə uyğun olaraq təsərrüfatlarda mühüm təşkilati-iqtisadi problemlərin həllinə istiqamətlənmiş tədbirlərin müəyyən edilməsindən ibarətdir. Tədqiqat nəticəsində əldə edilmiş əsas müddəalar, nəticə və təkliflər gələcəkdə subtropik bitkiçilik məhsullarının innovativ istehsalının və satış bazarının inkişafı, səmərəliliyinin yüksəldilməsi problemlərinin həllində, eyni zamanda, "kənd təsərrüfatının rayonlar üzrə ixtisaslaşması", "aqrar siyasətin müəyyən edilməsi", "aqrar sahədə məşğulluğun yüksəldilməsi", "aqrar sahədə rəqabət qabiliyyətinin artırılması" və s. istiqamətlərində layihələrin və proqramların hazırlanmasında, onların reallaşdırılmasında faydalı ola bilər.

Bunlardan əlavə, dissertasiya işində verilmiş elmi-nəzəri müddəalardan dərsliklərin və dərs vəsaitlərinin, mühazirələrin hazırlanmasında, elmi-tədqiqat işlərinin yerinə yetirilməsində, eləcə də tədris prosesində istifadə etmək də mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın başlıca müddəaları və əsas nəticələri 4 tezis (1-i xaricdə olmaqla) və 6 məqalədə (1-i xaricdə olmaqla) Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici nəşrlərdə, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır. Müəllifin "Экономическая эффективность производства продукции растениеводства в Ленкоранском экономическом районе" (Махачкала-2021); "Subtropik bitkiçiliyin inkişafının iqtisadi əhəmiyyəti" (Gəncə-2022), "Meyvəçiliyin innovativ inkişafının iqtisadi əhəmiyyəti" (Sumqayıt-2022), "Azərbaycanda çay istehsalının inkişaf dövrü" (Bakı-2023) adlı tezisləri, həmçinin "Kənd təsərrüfatının innovativ inkişaf problemləri" (Bakı-2020); "Modernləşmə - kənd təsərrüfatının innovativ inkişafının əsasını təşkil edir" (Bakı-2020); "Направления совершенствования стимулирования развития цитрусоводства в Азербайджане" (Moskva-2021); "Çay emalı sənayesinin rəqabət

qabiliyyətini idarə etmək üçün regional modelin konseptual əsaslandırılması” (Bakı-2021); “Subtropik bitkiçilik məhsulları istehsalının innovativ texnologiyalar əsasında genişləndirilməsi istiqamətləri” (Bakı-2022), “Azərbaycanda meyvə-tərəvəz məhsullarının ixrac problemləri” (Bakı-2022) adlı məqalələri dərc edimişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və təkliflərdən, 107 sayda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın məzmunu 135 səhifə kompüter yazısı həcmində olub, o cümlədən giriş 14703 işarə, I fəsil 78744 işarə, II fəsil 50825 işarə, III fəsil 68812 işarə, nəticə 8596 işarə təşkil edir. Dissertasiyada 14 cədvəl, 1 sxem, 4 diaqram verilmişdir. Dissertasiyanın ümumi həcmi 249717 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı və cədvəllər, əlavələr istisna edilməklə isə 221680 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** tədqiqat mövzusunun aktuallığı və işlənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi barədə geniş şərh verilmişdir.

“**İnnovasiya texnologiyalarından istifadə əsasında subtropik bitkiçiliyin iqtisadi səmərəliliyinin yüksəldilməsinin elmi-nəzəri və metodoloji əsasları**” adlanan birinci fəsildə subtropik bitkiçiliyin innovativ texnologiyalar əsasında inkişaf etdirilməsinin kənd təsərrüfatının inkişafında rolu, subtropik bitkiçiliyin innovativ inkişaf etdirilməsinin elmi-nəzəri əsasları və innovasiya texnologiyalarından istifadə əsasında subtropik bitkiçiliyin inkişafının iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin metodoloji xüsusiyyətləri

istiqamətində tədqiqatçı tərəfindən araşdırmalar aparılaraq təhlil edilmişdir.

Bu fəsildə müəllif kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi ilə istehsal resurslarından səmərəli istifadəni və sahədən məhsuldarlığın artırılmasına geniş imkanlar yaratdığını təhlil etmişdir. O göstərmişdir ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının və sənaye sahələrinin kənd təsərrüfatında istehsal olunan xammala olan tələbatının ödənilməsi aqrar sahənin innovativ inkişafını və bu istiqamətdə sahələr üzrə tədqiqatların aparılmasını şərtləndirir. Müəllifə görə, ölkəmizdə 2010-cu ildən başalayaraq aqrar sahənin səmərəli inkişafının təmin edilməsi məqsədilə innovativ texnologiyaların və müasir istehsal üsullarının tətbiqi, yeni yanaşmalar nəticəsində məhsul istehsalının artırılması ilə bərabər, onların keyfiyyətinin də yüksəlməsinə nail olunmuşdur.

Eyni zamanda, müəllif qeyd edir ki, tərəfimizdən aparılan tədqiqatlar zamanı əldə etdiyimiz nəticələrə görə aqrar sahənin davamlı inkişafının təmin edilməsi üçün tətbiqi texnoloji tədqiqatlar aşağıdakı əsas istiqamətlərdə (sahələrdə) inkişaf edir:

- kənd təsərrüfatı, su və meşə təsərrüfatı, meliorasiya,;
- bitkiçilik məhsulları istehsalı və bitki mühafizəsi;
- heyvanların yemlənməsi və xəstəliklərdən mühafizəsi;
- istehsalın mexanikləşdirilməsi, elektrikləşdirilməsi və avtomatlaşdırılması;
- kənd təsərrüfatı məhsullarının saxlanması, daşınması və emalı.

Tədqiqat proesində, tədqiqatçı kənd təsərrüfatının, eləcə də subtropik bitkiçiliyin innovativ texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi ümumilikdə kəndin dayanıqlı inkişaf məqsədlərinə uyğun olmasını müəyyən etmişdir.

Kənd təsərrüfatı sahələrinin inkişaf etməsi istiqamətində atılan addımlardan ən birincisi məhsul istehsalçılarının həyat şəraitinin yaxşılaşmasına yönəlməlidir ki, onların məhsul istehsalına maraqları artsın. Kəndin inkişafının təmin edilməsində aşağıdakı amillərə xüsusi diqqət yetirilməsi tələb olunur:

- sosial rifahın və sağlamlığın təmin edilməsi;
- əhalinin təmiz içməli su ilə təmin edilməsi;

- kənd yerlərinin inkişafında davamlı iqtisadi artımın təmin edilməsi üçün əlverişli və davamlı enerji, əmək qabiliyyətli əhalinin tam məşğulluğunun təmin edilməsi;

- kənd təsərrüfatında innovasiya texnologiyalarının sürətləndirilmiş tətbiqi və davamlı infrastrukturun yaradılması, emal sənayesinin dayanıqlı inkişafı üçün xammalla təchiz edlməsi;

- əhalinin təhlükəsiz davamlı yaşayış evlərilə təminatının yaxşılaşdırılması;

- davamlı istehsal və istehlak nümunələri;

- qloballaşan iqlim dəyişikliyinə uyğun olaraq kənd təsərrüfatının inkişafının təmin edilməsi;

- regionlarda əlverişli və davamlı istehlak və əmtəə bazarının formalaşdırılması və inkişaf etdirilməsi.

Müəllif yuxarıda verilən bütün bu amillərin hər bir iqtisadi rayonun təbii iqlim şəraitinə uyğun olaraq formalaşan təbii-iqtisadi resurslardan daha səmərəli istifadə olunmasını şərtləndirdiyini tədqiqat prosesində müəyyən etmişdir.

Müəllif qeyd etmişdir ki, iqtisadiyyatın innovativ bir modelinə keçid, yalnız sabitləşmə deyil, həm də yerli istehsalın texniki və texnoloji səviyyədə daim artmasına səbəb olur. Subtropik bitkiçilik təsərrüfatında əsas yenilik sahələrinin bunlar olduğunu göstərmişdir:

- subtropik bitki (çay, limon, narıngi, kivi, portağal, nar, xurma, zeytun və s.) məhsullarının istehsalı, saxlanması və emalı üçün enerji və resursa qənaət texnologiyalarının olması;

- daxili bazarın ucuz və keyfiyyətli qida məhsulları ilə doldurulmasına kömək edən yeniliklər;

- maşın və avadanlıqların məhsuldarlığını, səmərəliliyini, istismar müddətini uzatmağa, məhsuldarlığı artırmağa yönələn yeniliklər;

- iqtisadiyyatın yenilikçi bir modelinin qurulması nəzərə alınaraq aqrosənaye sektor üçün savadlı mütəxəssislərin hazırlanması;

- ekoloji durumu yaxşılaşdırmaq üçün tədbirlər.

Tədqiqatçı belə qənaətə gəlmişdir ki, kənd təsərrüfatında baş verən müxtəlif hadisələrin obyektiv iqtisadi qiymətləndirilməsi olmadan, innovasiya texnologiyalarından istifadə əsasında subtropik

bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəliliyinin səviyyəsini müəyyən etmək mümkün deyil.

Müəllif bildirir ki, iqtisadi səmərəliliyin meyarı aqrar sahədə həyata keçirilən müəyyən fəaliyyətlərin qiymətləndirilməsinə xidmət edir. Bütün xalq təsərrüfatının iqtisadi səmərəliliyinin meyarı, əksər alimlərin fikrincə adambaşına düşən milli gəlirin həcmidir. Milli gəlir yalnız insanların ehtiyaclarını ödəmək mənbəyi deyil, həm də istehsalın daha da genişləndirilməsi və yaxşılaşdırılması mənbəyidir.

Disseratasiya işinin ikinci fəslində "**Azərbaycanın kənd təsərrüfatında subtropik bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəliliyinin mövcud vəziyyətinin təhlili**" istiqamətində elmi tədqiqat aparılmışdır. Bu fəsildə müəllif kənd təsərrüfatında subtropik bitkiçilik məhsulları istehsalının və istehlakının, subtropik bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəliliyinin mövcud vəziyyətinin təhlilini vermişdir. Eyni zamanda, subtropik bitkiçilik məhsullarının emalının və satışının mövcud vəziyyətinin təhlili istiqamətində tədqiqat işlərini davam etdirmişdir.

Müəllif subtropik bitkiçiliyin bir hissəsi olan sitrus meyvəçiliyinin inkişaf imkanlarını təhlil edərək göstərir ki, ölkədə təbii-iqtisadi zonaların, demək olar ki, hamısı çoxsahəli bitkiçilik məhsulları istehsalı üzrə ixtisaslaşmışdır. Araşdırmalarımız göstərir ki, kolxoz-sovxoz dövründə planlı şəkildə müəyyən edilmiş ixtisaslaşma, xüsusi mülkiyyətə əsaslanan təsərrüfatçılıq dövründə dəyişikliliyə uğradı. Bu dəyişiklik əsasən üzümçülük, çayçılıq və pambıqçılıq sahələrinə daha çox təsir etdi. Əsas səbəb bu məhsulların satışında yaranan problemlərlə bağlı oldu. Aparılan islahatlar yenidən bu sahələrin inkişaf etdirilməsini aktuallaşdırdı. Bu məqsədlə qeyd edilən sahələrin inkişaf etdirilməsi üçün dövlət proqramları qəbul edildi. Eyni zamanda, subtropik bitkiçiliyin bir hissəsi olan və Lənkəran-Astara iqtisadi rayonunda əsas istiqamətlərdən biri olan sitrus meyvəçiliyinin inkişafı haqqında da dövlət proqramı qəbul edilmişdir.

2022-ci il torpaq balansı məlumatlarına görə Astara rayonunun kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi 17563 hektar təşkil edir ki, onun da 6028 hektarı əkin üçün, 2176 hektarı isə çoxillik əkmələr üçün istifadə olunur. Lerik rayonunun kənd təsərrüfatına yararlı

torpaq sahəsi 57607 hektar təşkil etmişdir ki, onun da 38406 hektarı (66,7%) örüş-otlaq sahəsi, 3463 hektarı (6,0%) biçənək kimi istifadə olunur. Yardımlı rayonunun kənd təsərrüfatına yararlı torpaq sahəsi 41889 hektar təşkil edir ki, onun da 12916 hektarı əkin üçün, 21 hektarı isə çoxillik əkmələr üçün istifadə olunur.

Göründüyü kimi bu rayonlarda ixtisaslaşma və torpaq ehtiyatlarının müxtəlifliyi bitkiçilik məhsullarının intensiv texnologiyalarla inkişafını və məhsuldarlığın artırılmasını şərtləndirir.

Qeyd edək ki, Lənkəran-Astara iqtisadi rayonunda bitkiçilik çox geniş ixtisaslaşmışdır. Burada müxtəlif kənd təsərrüfatı bitkiləri – dənli bitkilər (o cümlədən çəltik), tütün, çay, üzüm, tərəvəz və sitrus bitkiləri becərilir. Bu bitkilərdən hər birinin öz inkişaf etdirildiyi rayonu var. Lənkəran-Astara iqtisadi rayonunda 2022-ci ildə bitkiçilik məhsullarının istehsalı dissertasiya işində cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Lənkəran-Astara iqtisadi rayonunda 2022-ci ildə bitkiçilik məhsullarının istehsalı, ton**

| | buğda | arpa | çəltik | kartof | tərəvəz | üzüm |
|---|---|---|---|---|---|---|
| Respublika üzrə | **1736087.2** | **1100754.2** | **11302.8** | **1074261** | **1823330** | **212645** |
| Astara | 124.7 | 56.8 | 841.0 | 7844 | 29099 | 26 |
| Lənkəran | 1212.5 | 96.3 | 2828.1 | 4050 | 82689 | 155 |
| Lerik | 6180.0 | 258.3 | - | 22287 | 4436 | - |
| Yardımlı | 7037.5 | 771.7 | - | 8595 | 2339 | 3 |
| Masallı | 17494.2 | 6592.4 | 781.9 | 15695 | 56612 | 1064 |
| Cəlilabad | 165600.0 | 13250.0 | - | 190400 | 2593 | 22913 |
| Ölkə üzrə istehsalda xüsusi çəkisi % | | | | | | |
| Astara | 0.01 | 0.01 | 7.44 | 0.75 | 2.39 | 0.02 |
| Lənkəran | 0.07 | 0.01 | 25.2 | 0.39 | 6.79 | 0.10 |
| Lerik | 0.36 | 0.02 | - | 2.14 | 0.37 | - |
| Yardımlı | 0.41 | 0.07 | - | 0.82 | 0.19 | - |
| Masallı | 1.01 | 0.60 | 6.92 | 1.50 | 4.63 | 0.17 |
| Cəlilabad | 9.54 | 1.20 | - | 16.1 | 0.21 | 12.26 |

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [8, s. 379].*

Bu cədvəldə verilən statistik məlumatlara görə, bitkiçilik məhsullarından buğda, arpa əsasən Yardımlı, Masallı və Cəlilabad rayonlarında, kartof – Lerik, Masallı və Cəlilabad rayonlarında, üzüm – Masallı və Cəlilabad rayonlarında, çəltik – Astara, Lənkəran və Masallı rayonlarında, tərəvəz – Astara, Lənkəran, Lerik və Masallı rayonlarında ixtisaslaşmışdır.

Kənd təsərrüfatının innovasiya texnologiyaları əsasında inkişafını şərtləndirən göstəricilərdən biri də məhsuldarlığın çox aşağı olmasıdır.

Müəllif Lənkəran-Astara iqtisadi rayonunun 2022-ci ildə bitkiçilik məhsulları üzrə məhsuldarlığını dissertasiya işində cədvəl 2-də vermişdir.

Cədvəl 2-də verilmiş statistik məlumatların təhlili göstərir ki, regionda qeyd edilən məhsullar üzrə məhsuldarlıq çəltik istehsalında Astara rayonunda respublika üzrə orta göstəricidən 15%, tərəvəz üzrə Lənkəran rayonunda 11%, Masallı rayonunda isə 42% yüksəkdir. Kartof üzrə Cəlilabad rayonunda 62%, üzüm üzrə isə Cəlilabad və Masallı rayonlarında məhsuldarlıq müvafiq olaraq 23-54% yüksək olmuşdur. Buğda və arpa üzrə isə regionda məhsuldarlıq respublika üzrə orta göstəricidən aşağı olmuşdur.

**Cədvəl 2**

**Lənkəran-Astara iqtisadi rayonunda 2022-ci ildə bitkiçilik məhsulları üzrə məhsuldarlıq, s/ha**

| | buğda | arpa | çəltik | kartof | tərəvəz | üzüm |
|---|---|---|---|---|---|---|
| Respublika üzrə | **31.9** | **28.8** | **36.1** | **190.4** | **196.2** | **102.7** |
| Astara | 25.2 | 20.0 | 41.6 | 82.0 | 149.7 | 63.4 |
| Lənkəran | 24.1 | 24.9 | 35.2 | 92.5 | 217 | 12.0 |
| Lerik | 24.0 | 20.5 | - | 145.0 | 129 | - |
| Yardımlı | 22.3 | 19.3 | - | 92.7 | 119 | - |
| Masallı | 24.2 | 22.1 | 35.4 | 174.4 | 279 | 159.0 |
| Cəlilabad | 29.2 | 25.0 | - | 307.5 | 181 | 126.8 |

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [8, s .636].*

Məhsul rəqabətqabiliyyətli olmadığı təqdirdə onun istehsalının davamı resurslardan səmərəsiz istifadə kimi qiymətləndirilə bilərdi.

Amma ilk növbədə buğdanın məhsuldarlığının yüksəldilməsi isə problemin həllinə yardım edə bilər. Bu zaman həm ərzaq təhlükəsizliyi baxımından ölkəyə lazım olan buğdanı daha az ərazidə yetişdirmək mümkün olacaq və taxıl əkilən torpaqların bir hissəsində rəqabətqabiliyyətli digər bitkilər üçün şərait yaradılacaq.

Cədvəl 3-də verilmiş statistik məlumatlara görə ölkədə fındıq, nar və xurma bağlarının sahələri daha böyükdür. Bu məhsulların ixrac imkanlarının geniş olması onların üstünlük əldə etməsinə səbəb olmuşdur, digər səbəb isə bu meyvə məhsullarının respublikanın geniş ərazilərində becərilməsi mümkündür.

**Cədvəl 3**

**Azərbaycanda subtropik bitkiçilik üzrə çoxillik əkmələrin inkişaf dinamikası (min ha)**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022-ci ildə 2018-ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| Xurma | 12.0 | 12.3 | 12.7 | 13.1 | 13.1 | 109 |
| Nar | 22.6 | 22.9 | 22.7 | 22.6 | 22.6 | 100 |
| Zeytun | 3.9 | 5.8 | 6.4 | 6.7 | 6.7 | 172 |
| Əncir | 2.0 | 2.0 | 2.0 | 2.0 | 2.0 | 100 |
| Limon | 0.6 | 0.6 | 0.6 | 0.7 | 0.7 | 117 |
| Portağal | 0.5 | 0.5 | 0.6 | 0.6 | 0.6 | 120 |
| Naringi | 2.7 | 2.8 | 2.8 | 3.0 | 3.1 | 115 |
| Kivi | 0.1 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 200 |
| Feyxoa | 1.5 | 1.5 | 1.5 | 1.5 | 1.5 | 100 |
| Qoz | 5.1 | 5.6 | 5.9 | 6.2 | 6.4 | 126 |
| Fındıq | 75.0 | 79.5 | 79.6 | 80.4 | 81.5 | 109 |
| Şabalıd | 0.3 | 0.3 | 0.29 | 0.27 | 0.28 | 93 |
| Çay | 1.1 | 1.08 | 1.07 | 1.0 | 1.0 | 91 |

*Mənbə:stat.gov.az (Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq)*

Eyni zamanda bitki yağlarına olan daxili tələbatın yüksək olması zeytun bağlarının genişləndirilməsini də şərtləndirmişdir. Digər tərəfdən susuzluğa davamlı olan zeytun bağları əsasən Abşeron iqtisadi rayonunda inkişaf etdirilir ki, bu da öz növbəsində digər kənd təsərrüfatı məhsulları istehsalı üçün o qədər də əlverişli olmayan torpaq sahələrindən səmərəli istifadə etməyə imkan verir.

**Cədvəl 4**

**Azərbaycanda subtropik bitkiçilik məhsullarının istehsal dinamikası, min ton**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022-ci ildə 2018-ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| Xurma | 160.1 | 177.1 | 185.2 | 192.5 | 184.3 | 115 |
| Nar | 155.1 | 181.0 | 182.1 | 185.3 | 187.4 | 121 |
| Zeytun | 1.1 | 1.1 | 1.0 | 1.5 | 3.2 | 291 |
| Əncir | 11.2 | 12.1 | 12.3 | 12.6 | 12.3 | 110 |
| Limon | 4.6 | 4.8 | 4.9 | 5.3 | 5.6 | 122 |
| Portağal | 3.1 | 3.5 | 3.9 | 4.5 | 5.1 | 165 |
| Naringi | 37.0 | 38.5 | 39.9 | 45.8 | 50.7 | 137 |
| Kivi | 0.2 | 0.2 | 0.3 | 0.4 | 0.6 | 300 |
| Feyxoa | 9.8 | 11.1 | 11.7 | 12.7 | 13.4 | 137 |
| Qoz | 11.7 | 11.6 | 12.6 | 13.1 | 13.6 | 116 |
| Fındıq | 52.1 | 53.8 | 49.5 | 67.6 | 72.1 | 138 |
| Şabalıd | 0.6 | 0.6 | 0.6 | 0.6 | 0.6 | 100 |
| Yaşıl çay istehsalı | 0.9 | 0.9 | 0.9 | 1.2 | 1.0 | 111 |

*Mənbə:stat.gov.az (Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq)*

Ölkə üzrə subtropik bitkiçilik məhsullarının 2018-2022-ci illər ərzində istehsalında daha çox artım müşahidə olunan məhsullardan zeytun 191%, kivi 200%, portağal 65% artmışdır. Fındıq, nar, əncir, limon, yaşıl çay və digər subtropik məhsulların istehsalının artması dinamikası da müşahidə olunur. Yalnız şabalıd istehsalı sabit qalmışdır. Son illərdə ölkədə zeytun və kivi bağlarının ümumi sahəsinin və bar verən bağların sahəsinin müqayisə olunan illər üzrə iki dəfədən çox artması nəticəsində məhsul istehsalının da 2-3 dəfədən cox artması innovativ inkişafın sürətləndiyini, eyni zamanda ənənəvi istehsalın mövcud olduğunu göstərir.

İddiaçı qeyd edir ki, maya dəyəri məhsulların qiymətlərinin müəyyən edilməsi üçün əsas göstəricidir. Sənaye məhsullarının maya dəyərinin sistematik şəkildə aşağı salınması sənaye istehsalının səmərəliliyinin artırılmasının əsas şərtlərindən biridir. Çünki bu, qazancın həcminə, gəlirlilik səviyyəsinə birbaşa təsir edir. Bu, özünü əsasən çay emalında göstərir.

Məhsulun rəqabət qabiliyyətliyinin yüksəldilməsi üçün davamlı texniki irəliləyiş, istehsala intensiv texnologiyaların tətbiqi və intensiv bağçılığın inkişafı zəruridir. Bu proseslər məhsulun maya dəyərinin dəyişməsinə təsir etdiyindən maliyyənin azaldılması üçün həlledici şərtdir. Yeni texnologiyaların tətbiqi, istehsal proseslərinin hərtərəfli mexanikləşdirilməsi və avtomatlaşdırılması, texnologiyanın təkmilləşdirilməsi, qabaqcıl material növlərinin tətbiqi məhsuldarlığı artırmaqla məhsulun maya dəyərini xeyli azalda bilər. İxtisaslaşma və kooperasiyanın genişləndirilməsi istehsal xərclərinin azaldılması üçün ciddi bir ehtiyatdır.

**Cədvəl 5**

**Lənkəran-Astara iqtisadi rayonunda 2017-2022-ci illər üzrə bitkiçilik məhsullarının ilkin emalının rayonlar üzrə dinamikası**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022-ci ildə | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 2020-ci ilə nisbətən,% | 2021-ci ilə nisbətən,% |
| Astara rayonu | | | | | | | | |
| - *təbii çay, ton* | 32.9 | 93.9 | 37.7 | 34.5 | 83.0 | 45.2 | 131 | 83 |
| Lənkəran rayonu | | | | | | | | |
| *-meyvə şirələri, min dkl* | - | - | - | 1.8 | 4.3 | 4.9 | 272 | 114 |
| - *təbii çay, ton* | 3486.3 | 2524.3 | 3011.9 | 933.4 | 3703.8 | 4753.2 | 509 | 128 |
| - *pivə, min dkl* | 3.5 | 4.5 | 34.2 | 6.0 | 3.5 | 7.2 | 120 | 206 |
| Masallı rayonu | | | | | | | | |
| *-pivə, min dkl* | 1.5 | 1.5 | 1.9 | 0.9 | 1.6 | 1.3 | 144 | 81 |

*Mənbə: Statistik göstəricilər müəllif tərəfindən Dövlət Statistika Komitəsinin (Sənaye statistikası) məlumatları əsasında tərtib edilmişdir (https://www.stat.gov.az/)*

Lənkəran-Astara iqtisadi rayonunda 2017-2022-ci illər üzrə bitkiçilik məhsullarının ilkin emalının rayonlar üzə dinamikası cədvəl 5-də verilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dövlət tərəfindən tətbiq edilən güzəştli kreditlər hesabına çayçılığın inkişafı istiqamətində də müəyyən işlər görülmüşdür. Qeyd edək ki, respublikamızda illik emal gücü 24,3 min ton olan 10 çay emalı fabriki fəaliyyət göstərir. Astara rayonu ərazisində inşa edilən çay fabriki gündə 10 ton yaşıl çay yarpağı emal etmək gücünə malikdir. Astara rayonunda 2022-ci ildə 662,5 ton yaşıl çay yarpağının istehsal olunmasına baxmayaraq statistik məlumatlara görə onun yalnız 6,8%-i (45,2 ton) emal olunmuşdur. Qalanı isə xammal kimi Lənkəran rayonunda emala verilmişdir.

Dissertasiya işinin üçüncü fəslində **"Subtropik bitkiçilik məhsulları istehsalının innovasiya texnologiyalarından istifadə əsasında iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri"** təhlil edilərək elmi tədqiqat işi yekunlaşdırılmışdır. Müəllif tərəfindən bu fəsildə subtropik bitkiçilik məhsulları istehsalında innovasiya texnologiyalarının tətbiqinin prioritet istiqamətləri, subtropik bitkiçilik məhsulları istehsalının innovativ inkişafının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi və subtropik bitkiçiliyin inkişafında innovasiya texnologiyalarından istifadə səmərəliliyinin yüksəldilməsi istiqamətləri elmi əsaslandırılmaqla müəyyən edilmişdir.

Müəllif, kənd təsərrüfatının innovasiyalı texnologiyalar əsasında inkişafının insan tərəfindən yaradılan resurslarla təbii resursların düzgün əlaqələndirilməsi və istifadənin düzgün idarə olunması kimi qəbul edilə biləcəyini qeyd edir. Göstərir ki, ən sabit təbii şəraitə - iqlim, relyef, torpaq, su ehtiyatları rejimi aiddir. İdarəetmə sistemi hazırlanarkən rəhbər tutulması tövsiyə olunan əsas prinsiplərə aşağıdakılar aid edilir:

- sistemin zona üzrə təbii və iqtisadi şərtlərə uyğunluğu;
- kənd təsərrüfatı məhsullarına tələbat nəzərə alınmaqla istehsalın ixtisaslaşması, kooperasiya və inteqrasiyasının inkişafı;
- sənaye və sənaye sahələrinin rasional tərkibinin və əlaqəsinin təmin edilməsi;

- torpaq, maddi-texniki və əmək ehtiyatlarından daha səmərəli istifadə;
- genişlənmiş təkrar istehsalın qorunması və sosial sahənin inkişafı üçün kifayət qədər yüksək maliyyə nəticələrinin əldə edilməsi.

Aqrar sahənin davamlı və rəqabətqabiliyyətli inkişafını təmin etmək üçün yeni texnoloji nailiyyətləri əldə etməklə, istehsal texnologiyalarının yenilənməsinə imkan verən elmi-texniki tərəqqi və innovativ proseslərin tətbiqi kənd təsərrüfatının və onun hər bir sahəsinin inkişafını sürətləndirir. Davamlı inkişafin təmin edilməsi, istehsalçıların öz fəaliyyətlərini innovativ əsaslarla qurmaqla əsas hədəfi müəyyən etmələrindən asılıdır. Bu baxımdan, istehsalçılar tərəfindən diqqətin daima yeni fikirlərə, təkliflərə və inkişafa yönəldilməsi onların bazarda mövqelərinin qorunub saxlanmasına və gəlirlərinin artmasına imkan verir.

Eyni zamanda müəllif Lənkəran-Astara iqtisadi rayonunda subtropik bitkiçilik məhsulları istehsalının və onunla əlaqədar sahələrin biznesinin idarə edilməsində mühüm məsələlərdən biri də fəaliyyətin strateji funksiyasının müəyyən edilməsinin zəruriliyini qeyd edir. Belə ki, təsərrüfatların və emal müəssisələrinin üzləşdiyi biznes mühiti çox mürəkkəb olmaqla bərabər, oxşar və fərqli xüsusiyyətlərə də malikdir. Eyni zamanda, bu mühitə təsir edən bir çox amillərlə əlaqədar dəyişikliklər sürətlə baş verir. Azərbaycanda aqrar sahədə innovasiya texnologiyaların subtropik bitkiçiliyin istehsalına tətbiqinin GZİT təhlilini aparmaqla, istehsalçı (fermer) üçün vacib olan məsələləri aşkar etmək və strategiyanın müəyyən edilməsi mümkündür.

Subtropik bitkiçilik məhsulları istehsalında innovasiya texnologiyalarının tətbiqinin GZİT təhlili cədvəl 6-da vermişildir.

Ətrafda baş verən proseslərə rəğmən, davamlı inkişafın təmin edilməsi məqsədilə yaranmış mühitə uyğunlaşmaq üçün mühüm qərarlar qəbul edilməsi və strateji əməliyyatların həyata keçirilməsi tələb olunur. Müəyyən edilmiş strateji funksiya sahənin yaranmış real mühitə uyğun olaraq ətraf mühiti düzgün anlamağa, ekoloji təmiz istehsalla bağlı məlumatları qiymətləndirməyə (imkanlar və

risklər), qarşılıqlı tədbirlərin görülməsilə bağlı düzgün qərar verməklə səmərəli fəaliyyət planlarını qurmağa imkan verir.

**Cədvəl 6**

**Subtropik bitkiçilik məhsulları istehsalında innovasiya texnologiyalarının tətbiqinin GZİT təhlili**

| | |
|---|---|
| **Güclü tərəfləri:**<br>- məhsuldarlığın artırılmasını təmin edir;<br>- istehsal xərclərini aşağı salır;<br>- kənd təsərrüfatı üçün gətirilən avadanlıqlar gömrük vergisindən azaddır.<br>- məhsulun keyfiyyəti yüksəlir;<br>- fermerin düzgün qərarlar qəbul etməsini asanlaşdırır;<br>- resurslardan qənaətlə istifadəni təmin edir;<br>- istehsalın iqtisadi səmərəliliyi yüksəlir.<br>- təsərrüfatların gəlirləri artır. | **Zəif tərəfləri:**<br>- innovasiya texnologiyalarının tətbiqi kiçik təsərrüfatlar üçün əlçatmazdır;<br>- innovasiya texnologiyaları üçün vəsait ayrlmır, dəstək zəifdir;<br>- innovasiya texnologiyalarının tətbiqi üçün bilik və bacarıqlar aşağı səviyyədədir;<br>- elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsi kifayət qədər deyil. |
| **İmkanlar:**<br>innovativ texnologiyaların tətbiqi ilə məhsuldarlığı artırmaq;<br>keyfiyyətli məhsul istehsal etməklə daha geniş bazarlara çıxmaq;<br>istehsalın davamlı artımını təmin etmək. | **Təhlükələr:**<br>rəqabətqabiliyyətliliyi aşağı düşür;<br>resurslardan səmərəsiz istifadə olunur;<br>kənd təsərrüfatında işləməyə maraq azalır;<br>subsidiyadan asılılıq artır. |

*Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

Bu halda təsərrüfatlar baş verən dəyişikliklərə uyğun olaraq düzgün qərarların qəbulu və həyata keçirilməsilə baş verən dəyişikliklərin güclü tərəflərindən səmərəli istifadə edir, zəif tərəflərin qarşısını alır və rəqabətqabiliyyətini təmin edəcək üstünlüklər əldə etmiş olur. Səhv qərarların isə təsərrüfat və müəssisələri uzunmüddətli çətinliklərə məruz qoya biləcəyi qeyd edilir.

**Dissertasiya işinin “Nəticə” bölməsində tədqiqat əsasında elmi təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir**

Dünya tarixində kənd təsərrüfatı daimi digər sahələrdən və bir çox amillərdən asılı olan problemli sahələr sırasındadır. Elə ona görə də yeni iqtisadi sistemin bütün dövrlərində kənd təsərrüfatının vəziyyəti digər sahələrə nisbətən daha mürəkkəb və ağrılı olmuşdur. Aparılan iqtisadi islahatlar nəticəsində son illər bir çox sahələrdə əldə olunan müsbət dəyişikliyə baxmayaraq, ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalının mövcud göstəriciləri potensial imkanlar səviyyəsindən xeyli aşağıdır. Bunun başlıca səbəblərindən biri də ümumi kənd təsərrüfatında, o cümlədən gəlirli sahələrdən biri kimi subtropik bitkiçiliyin inkişafında innovasiya texnologiyalarından səmərəli istifadə və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri ilə bağlıdır. Bu istiqamətdə aparılan tədqiqatlar və ümumiləşdirmələr aşağıdakı müddəaları və nəticələri müəyyən etməyə imkan vermişdir:

- Elmi yeniliklərin inkişafının sosial-iqtisadi mahiyyəti innovasiya fəaliyyətinin nəticələrinin istehlakçı tərəfindən birbaşa kənd təsərrüfatı məhsulları istehsalında istifadəsinin müəyyən bir iqtisadi və sosial səmərə verməsidir. Nəticədə istehsalın səmərəli idarə edilməsi və inkişafı üçün maddi şərtlər yaranır. Əldə edilən elmi yeniliklərin inkişafının funksional mahiyyəti ən son elmi-texniki biliklər və istehsal təcrübəsi vəziyyətindəki fərqin aradan qaldırılması mühüm potensial hesab edilə bilər.
- Aqrar sahədə sahənin inkişafı və məhsul istehsalının xüsusiyyətlərinə uyğun olaraq innovasiya prosesinin özünəməxsus aşağıdakı spesifikliyi mövcuddur: aqrar texnoloji prosesin təbii şərtliliyi, rəqabət zəifliyi, yüksək maliyyə vəsaiti tələb etməsi, təsərrüfatların kiçik ölçülü olması və s. Subtropik bitkiçiliyin müxtəlif sahələrində mənimsənilən yeniliklərin təsnifatı hər bir istehsal sahəsindəki mövcud innovativ inkişaf istiqamətlərini və sahəyə investisiya səviyyəsini müəyyən dərəcədə xarakterizə edir. Ona görə də istehsalın spesifik xüsusiyyətləini nəzərə almaqla subtropik bitkiçilikdə innovativ texnologiyaların tətbiqinə və inteqrasiya proseslərinə təsir edən amillərin nəzərə alınması zəruri hesab edilir.

- İnkişaf etmiş ölkələrin təcrübələrinin ümumiləşdirilməsi göstərir ki, innovativ fəaliyyətin təşkilində formalaşdırılmış uyğun bir hüquqi çərçivə, innovasiya proseslərinin təşkilati və iqtisadi tənzimlənməsində birbaşa iştirak edir. Belə ki, inkişaf etmiş dövlətlər innovasiya proseslərinə birbaşa və dolayısı təsir etmə imkanlarına malikdirlər. Birbaşa təsirin əsasını müxtəlif üsullarla maliyyələşdirmə, dolayısı ilə təsiri isə əlverişli iqtisadi şərait və elmi-texniki inkişaf üçün ictimai-siyasi şərait yaratmaq, habelə innovasiya proseslərini stimullaşdırmaq təşkil edir. Beləliklə, dövlət sahələrin innovasiya texnologiyaları əsasında inkişafına xüsusi maraq göstərmiş olur.
- Azərbaycanda müasir texnoloji sistemlər uyğunlaşma qabiliyyətinə, proseslərin biolojiləşdirilməsinə, ekoloji və iqtisadi səmərəliliyə, sabit barvermə qabiliyyətinə, meyvə aqrosenozunun istehsal potensialının optimal şəkildə həyata keçirilməsinə, məhsulların yüksək istehlak keyfiyyətlərinə malik olmalıdır. Ölkəyə gətirilən subtropik meyvə tingləri yerli təbii-iqlim şəraitinə uyğun adaptasiya olunması üçün bağçılıq göstəricilərinə diqqət yetirilməsi tələb olunur. Burada bitkinin bioloji xüsusiyyətləri, xəstəlik və zərərvericilərə qarşı davamlılığı, bitkilərin adaptiv reaksiyalarının idarə edilməsi və s. nəzərə alınmalıdır. İnnovativ bağçılığın inkişafı üçün ən optimal variant yerli bitki sortlarının yaradılmasıdır ki, bu da yerli xüsusiyyətli məhsulları rəqabətqabiliyyətli etməklə xarici bazarlarda tələbatı artırır.
- Son illərdə aqrar sahənin inkişafında müşahidə olunan çətin iqtisadi vəziyyətə baxmayaraq, innovasiya prosesləri tədricən güclənmişdir. Bu hal, xüsusilə müxtəlif istehsal sahələrində innovativ yenilikləri intensiv mənimsəyən bəzi təsərrüfatlarda (intensiv bağçılıqda, tərəvəzçilikdə, heyvandarlıqda), eyni zamanda həm məhsuldarlıqda, həm də məhsulun keyfiyyət standartlarına uyğunluqda özünü göstərir. Bu göstəricilərin təhlili ümumilikdə fərqli təsərrüfatlar üzrə orta göstəricilər üzrə məlumatların müqayisəsində, iki, üç dəfə artma səviyyəsinə çatan əhəmiyyətli bir fərqin meydana çıxmasında aydın görünür. Ona görə də innovativ texnologiyalar əsasında subtropik bitkiçilikdə istehsalın dinamik

inkişafını və səmərəliliyini təmin edən strategiyanın hazırlanmasını məqsədəuyğun hesab etmək olar.

- Son illərdə innovasiya siyasətinin həyata keçirilməsində kənd təsərrüfatı istehsalçılarına həm yerli, həm də xarici yeniliklərin və qabaqcıl təcrübənin tətbiqinə kömək etmək üçün aqrar sahənin məlumat və məsləhət xidmətinin təşkilinə xüsusi yer verilmişdir. Əhalinin artması ilə əlaqədar olaraq ərzaq məhsullarına artan tələbatı ödəmək tapşırığı tək sahibkarlıq subyektlərinin qarşısında duran bir məsələ deyil. Burada elmi tədqiqatların rolunu və onun qarşısında duran vəzifələri də qeyd etmək lazımdır. Ərzaq bolluğunun yaranmasında və ekoloji təmiz məhsul istehsalının artırılmasında daha mühüm rola malik olan elmi-tədqiqat sahəsində baş verən yeniliklər və onun istehsala tətbiqi kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitə mənfi təsirini azaltmaq üçün daha mütərəqqi əkinçilik üsullarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, dövlətin burada üzərinə mühüm vəzifə düşür. Çünki, hesab edirik ki, dövlət ölkə əhalisinin sağlam yaşaması üçün zəruri olan ekoloji təmiz ətraf mühitin qorunmasını təmin etməklə, mənfəət axtaran sahibkarlarla əhali arasında ortaq marağın təmin edilməsinə kömək edən bir tənzimləyici funksiyanı yerinə yetirməlidir.
- Azərbaycanda mövcud olan əksər təsərrüfat subyektlərinin kiçik ölçülərə malik olmaları səbəbindən, onların genişmiqyaslı yenilikləri həyata keçirmək üçün lazım olan vəsaitləri cəmləmələri mümkün deyil. Bu təsərrüfatların daxili və xarici bazarlarda geniş şəkildə təmsil olunmaları üçün geniş əlaqələrə malik olmaları qaçılmazdır. İnnovativ texnologiyaların tətbiqi və inkişafı getdikcə daha çox sahələrarası əlaqələrin inkişafını şərtləndirir. Lakin, nəzərə almaq lazımdır ki, elm və texnikanın müxtəlif sahələri ilə əməkdaşlıq əlavə xərc tələb edir və bu səbəbdən inteqrasiya proseslərinin sürətlənməsi və iri təsərrüfatçılıq formalarının inkişafı və sahə üzrə kooperativlərin yaradıması əsas prioritet məsələlərdən biri hesab olunur.
- İnteqrasiya proseslərinin inkişafı təmin edilməsə əldə edilən yeniliklərin təcrid olunmuş şəkildə həyata keçirilməsinə gətirib çıxara bilər. Bu isə həm ayrı-ayrılıqda tərəflər üçün, həm də bütövlükdə iqtisadiyyat üçün əhəmiyyətli itkilərə səbəb ola bilər.

Yəni, mövcud şərtlərdə yeniliklərin təcrid olunmuş qaydada tətbiqi böyük iqtisadi itkilərlə əlaqəli olan texnoloji zəncirlərin müxtəlif əlaqələrinin uyğunsuzluğu innovasiya texnologiyaları əsasında inkişafın ləngiməsinə səbəb olar. İnteqrasiya münasibətlərinin genişlənməsi və inkişafı isə, müəyyən amillərin təsiri ilə iqtisadi subyektlərin yüksək müstəqilliyinə gətirib çıxara bilər ki, bu da bazarda rəqabət üstünlüyü əldə etməyə imkan verər.

- Kənd təsərrüfatında innovasiyanı tənzimləyən qanunvericilik və tənzimləmə mexanizmləri formalaşmadan, innovasiya siyasətinin uğurla həyata keçirilməsi mümkün deyil. Bunun üçün kənd təsərrüfatının innovativ inkişafına dövlətin münasibəti və dəstəyi təkmilləşdirilməli, dövlət dəstəyinin istiqamətlərini və qəbul edilən proqramlardan irəli gələn tədbirlərin səmərəli tətbiqini təmin etmək üçün əlverişli şərait yaradılmalı və bu məqsədlə qanunların və digər normativ-hüquqi sənədlərin hazırlanması və qəbul edilməsi təmin edilməlidir. Milli istehsal texnologiyalarının yaranması, xüsusən də seleksiya işlərində innovasiya texnologiyaları əsasında yenilikçi fəaliyyətlərə sərmayə qoymaq və yerli şəraitə uyğun olaraq, aqrar sektorun innovativ inkişafı ilə bağlı qanunvericilik aktlarının qəbul edilməsi zəruri hesab edilir.
- İnnovasiya texnologiyaları əsasında kənd təsərrüfatının düzgün və dəqiq inkişafını məhdudlaşdıran amillərdən biri əslində onun multidissiplinar aspektlərini birləşdirə bilən adekvat peşəkarlığın olmaması ilə bağlıdır. İnnovativ texnologiyaların tətbiqinin səmərəliliyini artırmaq üçün bu sahədə müasir və qlobal inkişafa inteqrasiya oluna biləcək qabaqcıl kənd təsərrüfatı üçün texniki və peşəkar ekspertlərin, mütəxəssislərin hazırlanması və bacarıqlarının artırılması üçün müvafiq təlimlərin keçirilməsi və yeni texnologiya üzrə tədris proqramlarının hazırlanması və tətbiqi, fermerlərin qabaqcıl texnologiyalardan istifadə bacarıqlarının artırılması əsas prioritetlərdən biri hesab olunur.
- Subtropik bitkiçilik məhsullarının innovativ texnologiyalar əsasında istehsalı və emal sənayesinin inkişafının mürəkkəb təbii və sosial-iqtisadi sistemlər sinfinə aid edilməsi fərqli yanaşma ilə nəticələnir. Subtropik meyvə istehsalının və emalı sahəsinin səmərəliliyinin artırılması üçün məhsul istehsalçıları ilə emalçıların

birgə fəaliyyəti daha səmərəli hesab edilir. Məhz bu baxımdan, birgə fəaliyyət strategiyası - dövlət dəstəyi sistemi, istehsalın ərazi bölgüsü və təsərrüfatlarla birgə fəaliyyət, peşəkar kadrların hazırlanması, elmi yanaşmaya üstünlük verilməsi kimi amillərin təsiri altında formalaşmalıdır. Eyni zamanda, bu amillərin emal sənayesinin inkişafına təsirinin nəzərə alınması bu sahənin inkişafı üçün zəruri şərt olmaqla, davamlı inkişafını təmin edə bilər. Hesab edirik ki, ümumilikdə kənd təsərrüfatı məhsullarının emalı sənayesinin, habelə məhsul istehsalının çeşidlərinin çoxşaxəli inkişafı kənd təsərrüfatının sənayeləşməsini sürətləndirməklə, əmək ehtiyatlarından səmərəli istifadə etməklə rayonlarda əhalini işlə təmin edə və kənd təsərrüfatının modernləşdirilməsinə kömək edən texniki təchizat qabiliyyətini və səviyyəsini yüksəldə bilər.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təklilər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Kənd təsərrüfatının innovativ inkişaf problemləri // – Bakı: “Kooperasiya” adlı elmi-praktiki jurnal, №1(56), 2020, – s. 47-51
2. Modernləşmə - kənd təsərrüfatının innovativ inkişafının əsasını təşkil edir // – Bakı: “Geostrategiya”, № 2 (56), 2020, – s.108-112;
3. Экономическая эффективность производства продукции растениеводства в Ленкоранском экономическом районе // – Maxaçkala: “Продовольственная безопастность: проблемы и пути решения” 27-28 oktyabr 2021, beynəlxalq konfrans, – s.118-123;
4. Направления совершенствования стимулирования развития цитрусоводства в Азербайджане // – Москва: журнал “Экономика и управление: проблемы, решения”, №4, 2021, – s.167-173;
5. Çay emalı sənayesinin rəqabət qabiliyyətini idarə etmək üçün regional modelin konseptual əsaslandırılması // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, № 3(62), 2021, – s.143-149;

6. Azərbaycanda meyvə-tərəvəz məhsullarının ixrac problemləri // – Bakı: "Audit" elmi-praktik jurnalı, № 2 (36). Bakı, 2022, – s.99-108;

7. Subtropik bitkiçilik məhsulları istehsalının innovativ texnologiyalar əsasında genişləndirilməsi istiqamətləri // – Bakı: Aqrar tədqiqatlar mərkəzi, "Kənd təsərrüfatının iqtisadiyyatı" elmi-praktik jurnalı, №2 (40) 2022, – s.51-57;

8. Subtropik bitkiçiliyin inkişafının iqtisadi əhəmiyyəti // – Gəncə: "Texnoloji inkişaf iqtisadi inkişafın əsasıdır" Respublika konfransının materialları, Azərbaycan Texnologiya Universiteti. 10 mart 2022, – s. 30-33;

9. Meyvəçiliyin innovativ inkişafının iqtisadi əhəmiyyəti // – Sumqayıt: "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının aktual problemləri" Respublika konfransının materialları. Sumqayıt Dövlət Universiteti, 20-21 oktyabr 2022, – s.118-121.

10. Azərbaycanda çay istehsalının inkişaf dövrü // – Bakı: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və müasir türk dünyası" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. 02 may 2023-cü il, – s. 428-432.



Dissertasiyanın müdafiəsi 27 iyun 2024-cü il saat $14^{00}$-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurasının iclasında keçiriləçək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 25 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 42649 işarə

Tiraj: 100